1_Layout 1 12.08.2023 9:11 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 16 (655)

15 avqust 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# MODERN İNKİŞAF, ARTAN GÜC, YÜKSƏLƏN NÜFUZ

## Prezident İlham Əliyev "Euronews"a müsahibəsində əzmkar mövqeyini bir daha nümayiş etdirdi

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Modern inkişaf, artan güc, yüksələn nüfuz" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Dünyanın müxtəlif məkanlarında özünü göstərən münaqişələr və onların kökləri, aparılan sülh prosesləri, problemlərin həlli üçün atılan addımlar, dövlətlərin gələcəyə baxışı və digər prinsipial məsələlərin beynəlxalq aləmə çatdırılmasında artıq əsrlərdir ki, informasiyanın, qurulan effektiv kommunikasiyaların gücü mühüm rol oynayır.

Erməni lobbisi ötən əsrin 90-cı illərinin əvvəllərində o zaman hələ müstəqillik yollarında ilk kövrək addımlarını atan Azərbaycanın beynəlxalq dairələrə, qlobal mediaya çıxış imkanlarının məhdudluğundan, haqq işimizə dəstək verənlərin azlığından istifadə edərək ətrafımızda informasiya blokadası yaratmışdı.

Əslində, ikili standartların, beynəlxalq normalara selektiv yanaşmanın, Ermənistanın dəstəklənməsi meylinin ortadan qalxdığını, işğalçı ölkənin təxribatlarına kömək göstərənlərin meydandan çəkildiyini yenə də demək mümkün deyil. Bu hallar, əfsuslar olsun ki, indi də var. Amma bu haqsız mövqe qarşısında qalan Azərbaycan daha ötən əsrin 90-cı illərinin Azərbaycanı deyil.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun gücü ilə torpaqlarımızı cəmi 44 gün ərzində işğaldan azad edən, BMT-nin illərdən bəri havadan asılı qalmış müvafiq qətnamələrini öz qüvvəsi ilə yerinə yetirən dövlətimiz informasiya savaşında da böyük üstünlüklər əldə etdi.

Azərbaycan dövləti bu istiqamətdə fəaliyyətini indi də uğurla davam etdirir. Dövlətimizin başçısı Azərbaycana qarşı geniş təbliğat aparıldığı bir vaxtda həmişəki kimi birbaşa kommunikasiyaya gedərək bütün məsələlər üzrə mövqeyini ortaya qoyur. Prezident İlham Əliyevin iyulun 22-də Şuşada "Euronews" televiziya kanalına verdiyi müsahibə də bu baxımdan istisna olmadı.



### Azərbaycan sülhün müəllifidir

30 illik işğaldan əziyyət çəkmiş və ədaləti güc hesabına bərpa etmiş ölkə olaraq Azərbaycan bu gün yeni sülh prosesinin müəllifidir. Müharibədə verdiyimiz qurbanların, çəkdiyimiz əziyyətlərin ağrı-acıları, tarixin dərsləri təbii ki, heç zaman unudulan deyil. Lakin qələbəni qoruyub saxlamaq, onun nəticələrini möhkəmləndirmək isə sülh dövrünün işidir. Ona görə tarix boyu o xalqlar, dövlətlər yekunda qalib çıxırlar ki, sülhün alternativsizliyinin fərqində olsun, məramı sülhə yönəlsin.

Münaqişənin insan itkilərinə yol vermədən başa çatması üçün təxminən 30 il gözləyən, böyük səbir və təmkin göstərən Azərbaycan sülh prinsiplərinə daim sadiqdir. Məqsəd regionda əbədi təhlükəsizliyi təmin etmək, bütün maraqlı tərəflərin faydalana biləcəkləri dayanıqlı inkişaf mühiti yaratmaq, bölgəmizi dünyanın əsl cənnətinə çevirməkdir. Bunun isə yolu sülhün mümkün qədər tez əldə olunmasındadır. Çünki sülh prosesləri uğurla başa çatdıqdan sonra bölgəmizin inkişafı üçün görüləcək çox işlər, həyata keçiriləcək çox layihələr var. 30 illik münaqişə mühiti Cənubi Qafqaz dövlətlərini çox geri salıb. Ermənilər Qarabağda, Şərqi Zəngəzurda illər boyu vandalcasına həyata keçirdikləri dağıdıcı əməllərlə, tar-mar etdikləri infrastrukturla Azərbaycanın sosial-iqtisadi həyatına böyük ziyan vurublar.

Dövlətimiz hazırda işğaldan azad olunan yurdlarımızda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq tədbirləri ilə bu yaraları sağaldır. Qarabağa, Şərqi Zəngəzura həyat gətirir. İndi gələcəyə baxmaq, regionun inkişafı üçün bütün imkanları faydalı məqsədlərə yönəltmək zamanıdır. Azərbaycan belə bir mövqe ortaya qoyur və faktiki olaraq bu gün sülh proseslərinə ən çox töhfə verən ölkə rolunda çıxış edir.

Sülh sazişinin ümumi prinsiplərini müəyyənləşdirən tərəf də məhz Azərbaycandır. Bunlar ölkələrin ərazi bütövlüyünün, suverenliyin və beynəlxalq sərhədlərin qarşılıqlı tanınması, sərhədlərin delimitasiyası, gücdən istifadə etməmə və ya güclə təhdid etməmə kimi beynəlxalq hüququn tam məlum prinsipləridir.

### Əsas olan nəticədir

Prezident İlham Əliyev "Euronews"a müsahibəsi zamanı sülh danışıqlarında Avropa İttifaqının rolunu xüsusilə yüksək qiymətləndirdi. Qeyd etdi ki, Avropa İttifaqı ən yaxşı vasitəçi ola bilər, çünki bizim onunla münasibətlərimiz qarşılıqlı hörmətə, etimada və maraqlara söykənir. Azərbaycanla Avropa İttifaqının, eləcə də onunla Ermənistanın əməkdaşlıq səviyyəsini nəzərə alsaq, Avropa İttifaqının bu proseslərdə fəallıq göstərməsi təbiidir. Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən təşkil olunan Brüssel görüşləri çox önəmlidir və həmin görüşlər bir çox həssas məsələyə toxunmaq imkanı verir.

Ümumən Azərbaycan üçün maraqlı olan sülh proseslərinin kim tərəfindən aparılması, bu prosesdə hansı ölkənin, beynəlxalq təşkilatın fəallıq göstərməsi deyil. Əsas məsələ ədalətli nəticənin əldə olunmasıdır. Azərbaycan Prezidenti müsahibəsi zamanı bu mövqeyi bir daha qətiyyətli şəkildə ortaya qoydu.

Qarabağda yaşayan erməniəsilli Azərbaycan vətəndaşlarına gəlincə isə, "Euronews"a müsahibəsində Azərbaycan Prezidentinin bununla bağlı kifayət qədər aydın bəyanatı oldu. Azərbaycan dövlətinin mövqeyinə görə həmin vətəndaşlara seçim hüququ veriləcək.

### Ermənistan hökumətinin iki yolu qalır

Azərbaycan Prezidenti İlham Əliyevin müsahibə zamanı Ermənistandakı ermənilərə də önəmli mesajı oldu. Qeyd etdi ki, biz onların dövləti ilə sülh istəyirik, bizim Ermənistana qarşı ərazi iddialarımız yoxdur, hazırkı geosiyasi vəziyyəti və qüvvələr balansını aydın dərk etmək lazımdır: "Uzun illər ərzində Ermənistan liderləri öz xalqını inandırırdılar ki, onlar dünyanın ən güclü ordusuna sahibdirlər... Bütün bu hekayələr tamamilə yanlış idi və təbliğatdan başqa bir şey deyildi. Beləliklə, müharibə bu hekayələri məhv etdi və bu təkcə bununla bitmədi. O, həmçinin Ermənistan dövlətinin çox sayda ideoloji sütunlarını dağıtdı. Onlar dərk etdilər ki, müharibəni uduzublar və çox güman ki, bu, onlar üçün psixoloji cəhətdən çox ağrılı oldu. İndi biz sülh istədiyimizi deyəndə, bu, ona görə deyil ki, biz zəifik və sülh axtarırıq. Xeyr, onlar bilirlər ki, biz xeyli güclüyük. Bu ona görədir ki, biz tarixin bu qara səhifəsinin bağlanmasını istəyirik. Biz nə bu gün, nə də gələcəkdə başqa bir müharibə istəmirik". Dövlətimizin başçısı onu da bildirdi ki, əgər onlar Azərbaycanla sülh sazişi imzalamaq istəmirlərsə, gələcəkdə vəziyyət proqnozlaşdırılmayan olacaq. Azərbaycanın tarixi zəfərimizlə yaratdığı yeni reallıqda Ermənistan hökumətinin iki seçimi var. Ermənistan hökuməti üçün seçim çox pis və ya qəbulolunan ola bilər. Qəbulolunan seçim sağlam düşüncəyə, beynəlxalq hüquqa və azərbaycanlıların 30 il ərzində məhrum edildikləri öz torpaqlarında yaşamaq hüququnun tanınmasına əsaslanır. Azərbaycan Prezidenti bununla da müsahibədə əzmkar mövqeyini bir daha nümayiş etdirdi.

### Avropaya və Qərbə açıq suallar

Prezident İlham Əliyev "Euronews"a müsahibəsində Avropa və Qərbin Azərbaycana münasibətdə ikili standartları ilə açıq qalmış sualı onlara ünvanlamaq fürsətindən də istifadə etdi. Məlumdur ki, bu gün Avropa və Qərb separatizmə qarşı mübarizədə Ukraynaya dəstək üçün birləşib. Azərbaycanın erməni separatizminə qarşı mübarizəsində isə əfsuslar olsun ki, tamamilə fərqli yanaşma görürük.

Prezident İlham Əliyevin "Euronews"a müsahibəsində ölkəmizin yeni strateji dövrdə Rusiya, Avropa ölkələri ilə münasibətləri ilə bağlı da aydın və konkret mövqe öz ifadəsini tapdı. Azərbaycan dövləti hazırda Rusiya ilə tarazlaşdırılmış münasibətlərə malikdir. İki ölkə arasındakı münasibətlər bir-birinin milli maraqlarının, ərazi bütövlüyünün, suverenliyinin tanınmasına əsaslanır. Rusiya Azərbaycanın qonşusu və tərəfdaşıdır.

Ölkəmiz eyni zamanda Avropa ilə də əhəmiyyətli əlaqələrə malikdir və Avropanın mühüm qaz təchizatçısıdır. Rusiyaya qarşı sanksiyalarla bağlı vəziyyət yeni ölçü yaradıb. Bu vəziyyətdən irəli gələrək hazırda Azərbaycanın enerji sərvətləri heç zaman olmadığı qədər müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan dövləti isə belə bir reallıqda öz addımlarını illər əvvəl imzalanmış müqavilələr, müəyyən edilmiş strateji planlar əsasında atır. Bu da ölkəmizin etibarlı tərəfdaşlıq prinsiplərinə sadiqliyinin, dövlət rəhbərimizin hər bir sözünün imzası qədər əhəmiyyət daşımasının daha bir təzahürüdür.

Bir sözlə, "Euronews" televiziya kanalına müsahibə dünya ictimaiyyətinin bir sıra suallara cavabları ən mötəbər mənbədən - Azərbaycan Respublikasının Prezidentindən alması baxımından son dərəcə faydalı oldu. Prezident İlham Əliyevin zəmanəsinin ən parlaq liderlərindən biri kimi kommunikasiya imkanlarından Azərbaycanın xeyrinə necə məharətlə, peşəkar şəkildə faydalandığını göstərdi. Eyni zamanda ölkəmizin və regionumuzun gələcəyi ilə bağlı dövlətimizin nə qədər aydın, məqsədyönlü planlara, inkişaf yoluna malik olduğunu nümayiş etdirdi.

# Daxili işlər naziri Qusar rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 3-4 avqust tarixlərində Qusar Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Qusar rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Şabran, Siyəzən və Xaçmaz rayonlarından qəbula gələn 115 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib. Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 23-ü Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 91 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**





2_Layout 1 12.08.2023 9:20 Page 1



## Hərbi Prokurorluq Daxili Qoşunlarla birgə Ulu Öndərin 100 illik yubileyi münasibətilə tədbir keçirib



Hərbi Prokurorluq Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə birgə Ulu Öndərin 100 illik yubileyi münasibətilə tədbir keçirib.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbində keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Hərbi prokurorunun müavini Mehdi Hüseynzadə və Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev, Daxili Qoşunların Ali Hərbi Məktəbinin rəisi İlqar Məmmədov və digər çıxışçılar tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs ediblər. Çıxış edənlər müstəqillik yolumuzu və firavan gələcəyimizi işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan Ulu Öndər Heydər Əliyevin şərəfli və mənalı ömründən danışıblar, onun çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən söz açıblar.



Çıxışçılar Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddətdə ölkəmizdə görülmüş misilsiz işlərə də toxunublar. Həyata keçirilən hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi Qələbə xüsusi vurğulanıb, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Daxili Qoşunlarla qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

**AZƏRTAC**

## Xidmətə yeni qəbul edilmiş çağırışçıların andiçmə mərasimi keçirilib



Avqustun 5-də Daxili Qoşunların hərbi hissələrində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Dövlət Himni ifa edilib. Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.



Tədbirdə çıxış edənlər əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıblar.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

## XÜSUSİ TƏYİNATLILARIN GÜCÜ ONLARIN PEŞƏKARLIĞINDADIR

16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək verilən tapşırıqların öhdəsindən layiqincə gəlir.



İlin istənilən fəslində, müxtəlif relyefli ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər. Qeyd edim ki, dəstə ötən ilin yekun yoxlamasını müvəffəqiyyətlə başa vurub.



Dəstə komandirinin müavini-qərargah rəisi kapitan Nadir Şərifov bildirdi ki, xüsusi təyinatlı dəstənin şəxsi heyətinin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsinin, dünyagörüşlərinin düzgün formalaşmasına xüsusi önəm verilir.



Kapitan N.Şərifovun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılması vacibdir. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

Zabit dedi ki, şəxsi heyətin yüksək döyüş hazırlığı ilə yanaşı, nizam-intizamının qorunub saxlanılması və sayıqlığın artırılması da daim nəzarətdə saxlanılır. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və mənəvi-psixoloji durumu dayanır.

Sonda kapitan N.Şərifov şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş leytenant Nicat Nəcəfov, baş çavuşlar Kənan Kərimov və Elçin Məcidovun adlarını çəkdi, onların yoldaşlarına nümunə olduqlarını söylədi.

**kapitan Şahin Cəfərzadə**

## PEŞƏ VƏRDİŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ HƏR ZAMAN DİQQƏTDƏ SAXLANILIR

17074 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri kapitan Seymur Mehralıyevin komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir.



Tabeliyində olan bölmələrin ümumi fəaliyyəti və qarşıya qoyulan vəzifələr barədə danışarkən dəstə komandiri bildirdi ki, təhkim olunmuş rayonlarda kütləvi iğtişaşların qarşısının alınması xüsusi vasitələrin tətbiqi dəstəsinin əsas vəzifəsidir. O əlavə etdi ki, şəxsi heyətlə keçirilən bütün təlimlər, məşğələlər yalnız bir məqsədə - Daxili işlər nazirinin və Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmr və göstərişlərinin tələblərinə əməl olunmasına, hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmalarına xidmət edir. Bu məqsədlə şəxsi heyətin qarşısına qoyulan vəzifələrin müvəffəqiyyətlə icra olunması üçün hərbi hissədə hərtərəfli şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, dəstənin şəxsi heyətinin üzərinə böyük məsuliyyət düşür. Belə ki, dəstə hər zaman döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlamaqla, təyinatı üzrə vəzifələri yerinə yetirməyə hazır olmalıdır.



Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran kapitan S.Mehralıyev bu işdə dəstə komandirinin müavini-qərargah rəisi mayor Emin Teymurovun və dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Ramil Əsgərovun əməyini yüksək qiymətləndirdi. O, dəstənin şəxsi heyətinin istənilən çətinliyin öhdəsindən gəlməyə hazır olduğunu bildirdi.



Zabit təlim və məşğələlərdə fəallığı ilə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş çavuşlar Yaşar Əlipənahov, Elnur Məmmədov, çavuş Adil İsmayılov və əsgər Nicat Mədətovun adlarını qeyd etməyi unutmadı.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 14.08.2023 8:45 Page 1



*Şəhidlərimiz*

# DÖYÜŞLƏRDƏ MƏRDLİK GÖSTƏRDİ, QƏLƏBƏ İNAMI İLƏ ŞƏHADƏTƏ QOVUŞDU...

44 günlük Vətən müharibəsində haqq-ədalətə söykənən Azərbaycan güclü dövlət olduğunu döyüş meydanında sübut edib. İşğalçı Ermənistan bu müharibədə rüsvayçı məğlubiyyətə uğrayıb. Şanlı ordumuz qanımıza susayan, on minlərlə soydaşımızı öldürən, onlara ağılasığmaz işgəncələr verən, işğal etdiyi rayonlarımızı xarabalığa çevirən, böyük sayda vətəndaşımızı yurdlarından didərgin salan, sərvətlərimizi talayan vəhşi düşməndən qisasımızı alıb. Azad edilən şəhər və kəndlərimizdə ucaldılan üçrəngli bayrağımızı görmək, aparılan bərpa-quruculuq işlərinin, məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının şahidi olmaq bizi ürəkdən sevindirir, möhtəşəm hərbi zəfərimizlə qürur duyuruq.

Qələbəyə aparan yolda şəhidlik və qazilik ən şərəfli məqamlardır. Belə oğullar yetişdirən xalq yenilməzdir. Hər bir şəhid və qazi düşmənə ilk növbədə öz döyüş ruhu ilə qalib gəlib. Onların fədakarlığı bizim üçün əsl həyat məktəbinə çevrilib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularının siyahısında kiçik çavuş Mikayılzadə Mikayıl Vidadi oğlunun da adı var. Siyahıda bu hərbi rütbədə olan yeganə hərbi qulluqçudur. Şəhidin atası Vidadi Quliyevə zəng vuraraq Mikayıl haqqında məqalə yazdığımı bildirdikdə Bakıdakı xəstəxanada müalicə olunduğunu, ayağı üzərində cərrahiyyə əməliyyatı aparıldığını dedi. Ancaq səhhətindəki problemlərə baxmayaraq, məqalə üçün lazımi məlumatların toplanmasına kömək etdi, suallarımı telefonla dolğun cavablandırdı.

Mikayıl 1992-ci il yanvarın 4-də Beyləqan rayonunun Şərq qəsəbəsində doğulub. Vidadi Quliyev və Rahilə Quliyevanın qurduqları ailənin sonbeşiyi idi, İranə adlı bacısı var. Atası əlildir, anası Şərq qəsəbəsindəki tam orta məktəbdə laborant işləyir. Ailənin tək oğul övladı olaraq Mikayıl vətənpərvər və zəhmətkeş gənc kimi yetişdirilib. Valideynləri və müəllimləri onu mənəvi dəyərlərimizə ehtiram ruhunda tərbiyə ediblər. Şərq qəsəbəsində yerləşən şəhid Qurban Namazəliyev adına tam orta məktəbi bitirib. Yeniyetmə vaxtından idmanın sambo, ağırlıqqaldırma və digər növləri ilə fəal məşğul olaraq fiziki hazırlığına diqqət yetirib. Orta məktəbdən sonra qəbul imtahanlarından uğurla keçə bilmədiyinə görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almaq arzusuna qovuşmayıb.

V.Quliyevin sözlərinə görə, Mikayıl heç bir çətinlik və uğursuzluq qarşısında ruhdan düşməyib, nikbinliyini itirməyib, həyatsevər olub. Ovçuluğa, ev heyvanları saxlamağa, odlu və soyuq silah növləri barədə biliklərə yiyələnməyə maraq göstərib.

2010-cu ilin yanvar ayında Mikayıl Dövlət Sərhəd Xidmətinin sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. Şəki rayonunda yerləşən "N" saylı hərbi hissədə sərhədçi olaraq xidmət keçib. Sərhədimizin keşiyində ayıq-sayıq dayanıb. Kiçik komandirlər kursunu bitirib. Manqa komandiri kimi öz vəzifələrini bacarıqla yerinə yetirib. Xidmətə yeni başlayan əsgərlərin təliminə də cəlb edilib. Nümunəvi xidmətinə görə müxtəlif növ mükafatlarla həvəsləndirilib. 2011-ci ilin iyul ayında o, hərbi xidmətdən ehtiyata buraxılıb.

Evə qayıtdıqdan sonra Mikayıl poçtda



işə götürülüb. Bir müddət bu sahədə işləyərək məsul vəzifəyə də irəli çəkilib. Ailədə bu barədə söhbət düşəndə deyib ki, belə iş ürəyincə deyil. Hərbi xidmətə qayıtmaq fikrinin olduğunu bildirərək valideynlərindən xeyir-dua vermələrini istəyib. Atasının oğlunun bu fikrinə ilk reaksiyası belə olub ki, tək oğul övladı olduğunu, eləcə də onun xəstəliyini nəzərə alaraq qərar versin. Lakin Mikayıl fikrindən dönməyib. Həyatını hərbçi peşəsinə bağlamaq, xüsusi təyinatlı bölmədə xidmət etmək niyyətinin ciddiliyini başa düşərək doğmaları onu dəstəkləyiblər.

2015-ci ilin avqust ayında Mikayılın DİN-in Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq üçün komandanlığa müraciəti müsbət cavablandırılıb. Həmin ayın 15-dən etibarən Daxili Qoşunlarda hərbi xidmətə başlayıb. 67987 saylı hərbi hissədə öncə xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun atıcısı, sonra müvafiq imtahanlardan uğurla keçərək xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun heyət nəfəri vəzifələrinə təyin edilib. Bu vəzifələrdə komandanlığın etimadını doğruldub, şəxsi nümunəsi ilə hərbçi adının nüfuzunu uca tutub. O, silahdaşlarının hörmətini qazanıb, onlardan diqqət və qayğısını əsirgəməyib. Xidməti vəzifələrinin və qarşıya qoyulan tapşırıqların icrasına vicdanla yanaşıb. Əzmkarlığı komandirlərinin diqqətindən yayınmayaraq dəfələrlə mükafatlandırılıb.

2018-ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə paytaxtımızın Azadlıq meydanında keçirilmiş hərbi paradda Mikayıl da iştirak edərək o gün şərəfli anlar yaşayıb. Hərbi qulluqçu "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

2020-ci il fevralın 2-də Mikayıl Səmayə xanımla ailə qurub. Həyatının bu xoşbəxt günündə silahdaşları da iştirak edərək onun sevincini bölüşüblər. Hərbi xidmətin çətinlikləri xüsusi təyinatlının ailəsinə diqqətini azaltmayıb. Ailəcanlı olması müsbət fərdi keyfiyyətlərindən biri kimi yaddaşlarda qalıb.

Xüsusi təyinatlını yaxından tanıyan, onunla birgə xidmət etmiş və döyüş yolu keçmiş hərbi qulluqçularla əlaqə saxladım, onlar şəhid haqqında xatirələrini danışdılar. Vətən müharibəsi iştirakçısı, 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun yarımqrup komandiri baş çavuş Seymur Musalı məlumat verdi ki, Mikayılı 2019-cu ildən tanıyıb. 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət edərkən Seymur onun yarımqrup komandiri olub: "Nizam-intizamlı, çalışqan, özünə qarşı tələbkar, yoldaşlarının uğurlarına sevinən, lazım olduqda onlara köməyə gələn, səbirli və dözümlü hərbi qulluqçu idi. Xüsusi təyinatlı kimi yüksək döyüş hazırlığını daimi saxlamaq, peşə bacarıqlarını təkmilləşdirmək üçün məşğələlər və praktiki təlimlərdən səmərəli yararlanıb. Daxili işlər nazirinin və Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının rəhbərliyi altında təşkil edilən xüsusi təlimlərə də qatılaraq fərqlənib. Təhkim olunmuş silahdan sərrast atəş açıb, taktiki və fiziki hazırlıq cəhətdən öz məharətini göstərib. Ümumilikdə, həmişə özünü döyüş tapşırıqlarının icrasına hazırlayıb. Bakıda keçirilmiş bəzi kütləvi tədbirlərdə, idman yarışlarında ictimai qaydanın mühafizəsi və koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi üzrə xidmətə cəlb olunub.

2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda öncə 16077 saylı hərbi hissəyə göndərildik. Orada ehtiyat qüvvə qismində döyüş əməliyyatlarında iştiraka hazırlıq görülüb. Həmçinin patrul xidmətinə çıxmışıq. Hərbi hissədə bir müddət qaldıqdan sonra ön cəbhəyə yola düşdük. Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə müxtəlif döyüş tapşırıqlarının icrasına başladıq. Mikayıl Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində və Şuşa şəhərinin ətrafında şərəfli döyüş yolu keçib. Pulemyot silahı ilə xeyli sayda işğalçını məhv edib. Azad edilmiş ərazilərdə axtarış zamanı gizlənmiş erməni hərbçilərini ələ keçirib, düşmənə məxsus silah-sursatı aşkarlayıb. Döyüşlərdə yaralanmış silahdaşlarımızın atəş altındakı sahələrdən çıxarılmasına köməyi də unudulmayıb. Cəsur döyüşçü olaraq son nəfəsinədək hərbi anda sadiq qalıb".

67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri gizir Cavid Məmmədov, xüsusi həmlə qrupunun atıcı-sanitarı baş çavuş Coşqun Orucov, atəş təminatı qrupunun pulemyotçusu baş çavuş Elvin Kiçibəyov, istehkamçı yarımqrupunun istehkamçısı çavuş Ağabəy Ağacanov da Vətən müharibəsi iştirakçıları və Mikayılın döyüşçü yoldaşlarıdır. Onların sözlərinə görə, Mikayıl etibarlı yoldaş, ləyaqətli silahdaş olub. Hərbçi peşəsinə ürəkdən bağlanıb, xüsusi təyinatlı olması ilə qürur duyub. Xidmətə can yandırıb, hərbi biliklərə həvəslə yiyələnib. Məsuliyyətli və hazırlıqlı hərbi qulluqçu kimi davamlı olaraq bayraqdarların sırasına, habelə qonaqları qarşılayan



manqaya seçilib. Verilmiş tapşırıqların öhdəsindən bacarıqla gəlib.

Müsahiblərim qeyd etdilər ki, Mikayıl ön cəbhədə ruh yüksəkliyi ilə vuruşub, torpaqlarımızın düşmən tapdağından qurtulmasına və müdafiəsinə layiqli töhfəsini verib. Yoldaşlarına deyib ki, bu, qeyrət məsələsidir, yurdlarımızın işğalına son qoymalı, bunu gələcək nəsillərə saxlamamalıyıq. Onu da bildirib ki, oğlu olsa adını Uğur qoyacaq, o böyüyəndə ona özünün müharibədə üzləşdiyi çətin sınaqlar haqqında danışacaq.

Mikayıl öz silahdaşları ilə birlikdə Şuşa istiqamətində irəlilədikcə mürəkkəb relyefə malik dağlıq ərazidən keçiblər, təhlükəli vəziyyətlərdən çıxıblar, işğalçıların atəş nöqtələri susdurulub və mövqeləri ələ keçirilib. Beləcə, bir neçə gün ərzində Şuşanın ətrafına yaxınlaşıblar. Laçın-Şuşa yolunun üzərindəki, İsa bulağına bir neçə kilometr məsafədə yerləşən mühüm yüksəkliyi nəzarətə götürərək orada mövqeləniblər. Ermənistandan bu yolla canlı qüvvə və hərbi yüklərin daşınmasının qarşısını almaq tapşırığı verilib. Yolu kəsilən düşmənin yüksəkliyi geri almaq cəhdləri dəf edilib. Noyabrın 6-dan 7-nə keçən gecə göstərilən yüksəklik təcavüzkarlar tərəfindən artilleriya vasitələri və tanklardan şiddətli atəşə tutulub. Atəş nəticəsində mərmi qəlpələrindən ağır yaralanan Mikayıl və bir neçə nəfər silahdaşı şəhadətə ucalıb. Bəzi döyüşçülər orada yaralanıblar. Şəhidlərin nəşləri və yaralılar ərazidən təxliyyə olunublar.

Beyləqan Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 17 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə Mikayılın 9 noyabr 2020-ci il tarixdə döyüş meydanında hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

İgid hərbi qulluqçumuz 2020-ci il noyabrın 10-da Beyləqan rayonunda yerləşən Cərcis peyğəmbər ziyarətgahındakı Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə kiçik çavuş M.Mikayılzadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Beyləqan şəhəri və Şərq qəsəbəsində şəhidin şəkilləri əks olunan plakatlar quraşdırılıb. Şərq qəsəbəsinin 11 nəfər şəhidi var, bu oğulların xatirəsinə abidə yaradılıb. Quliyevlər ailəsinin yaşadığı evdə xatirə guşəsi düzəldilib.

Xəyalə Əliqızının "Vətəni şücaəti ilə sevdirənlər", Raziyə Kamilqızının "Ölümsüz qəhrəmanlar", Ramil Hikmətin "Beyləqan şəhidləri", Esmira Günəşin "Qəlbimizdə yaşayanlar" kitablarında Mikayılın döyüş yolu işıqlandırılıb. Döyüşçü haqqında videoçarxlar da mövcuddur.




Xəzər Universitetinin "Dünya məktəbi"nin tədris sinfinə şəhid xüsusi təyinatlının adı verilib.

Mikayıl öz nəslində yeganə şəhiddir. Əmisi Bəhruz Quliyev, habelə digər qohumları Səfər Cəfərov və İlham Abbasov Birinci Qarabağ müharibəsinin iştirakçılarıdır. Əmisi oğlu Məhəmmədəli Quliyev isə Vətən müharibəsi zamanı döyüşüb.

2021-ci il yanvarın 23-də şəhidin oğlu dünyaya gəlib, özü sağ ikən Uğur adını seçmişdi, lakin əzizləri xatirəsini yaşatmaq üçün körpəni Mikayıl adlandırıblar. Buna baxmayaraq, evdə onu Uğur deyərək də səsləyirlər. Şəhidin yadigarı ailəyə yeni nəfəs verib, özü ilə xoş ovqat gətirib. Qalib döyüşçünün oğlu kimi o, şəhid ocağının ümidi və gələcəyidir.

"Qəlbimizdə yaşayanlar" kitabında Mikayıla həsr olunan şeir dərc edilib. Şeirdə belə misralar var:

**Deyirlər "Canavar" ləqəbi alıb**
**Düşmənin üstünə şığıyan zaman.**
**Vətənin mərd oğlu, belə igidi**
**Daim xatırlanar, anılar hər an.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİD HƏRBİ QULLUQÇUMUZUN AİLƏSİ ZİYARƏT EDİLİB

Respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə son nəfəsinədək vuruşaraq hərbi anda sadiq qalmış Daxili Qoşunların cəsur hərbi qulluqçularından biri də şəhid baş çavuş Elçin Nadirovdur. İyul ayının 26-da 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Firat Sadıqovun rəhbərliyi ilə bir qrup hərbi qulluqçu şəhid xüsusi təyinatlı baş çavuş Elçin Nadirovun ailəsinə baş çəkib. Görüşdən öncə hərbi qulluqçular şəhidin məzarını ziyarət ediblər. Şəhadətə ucalmış döyüşçünün xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

Qeyd edək ki, Elçin 1987-ci il dekabrın 5-də Şəki şəhərində anadan olub. Doğmalarının bildirdiklərinə görə, Elçinin musiqiyə marağı olub, Şəkidəki 2 saylı uşaq musiqi məktəbində qarmon üzrə təhsil alıb. Bununla yanaşı, o, Şəkidəki Mirzə Fətəli Axundov adına 2 saylı, habelə 5 və 7 saylı orta məktəblərdə oxuyub, sonra şəhərdə yerləşən Fizika-riyaziyyat və humanitar təmayüllü liseyə qəbul olunub, 2005-ci ildə buranı bitirib. Yeniyetməlik illərində idmanın karate növü



ilə məşğul olub, sağlam həyat tərzinə, fiziki hazırlığının inkişafına, idmançı məharətinin artırılmasına xüsusi diqqət yetirib.

Ailə üzvləri Elçin barədə xatirələrini bölüşərkən söyləyiblər ki, o, 2006-cı ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25032, 67987 və 17072 saylı hərbi hissələrində hərbi xidmət keçib. 2009-cu ilin aprel ayında Elçin yenidən hərbi xidmətə, Daxili Qoşunların sıralarına qayıdıb. 16077, 17071 və 17074 saylı hərbi hissələrdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edib, tutduğu vəzifələrdə komandanlığın etimadını doğruldub.

Döyüşçü yoldaşları isə Elçinin Vətən müharibəsində göstərdiyi şücaəti, qəhrəmanlıq nümunələrini yada salıblar. Onun müharibənin ilk günlərindən düşmənə qarşı cəsurluqla vuruşaraq döyüş tapşırıqlarını mətinliklə yerinə yetirdiyini söyləyiblər. Belə ki, 2020-ci ilin sentyabr ayının 27-dən etibarən Elçin silahdaşları ilə birgə Kəlbəcər istiqamətində, Murovdağda döyüşə başlayıb, sonra Cəbrayıl və Füzuli rayonlarının ərazilərində işğalçılara qarşı vuruşub. 2020-ci il oktyabrın 15-də, təxminən gündüz saat 3 radələrində Füzuli şəhəri ərazisində ağır yaralanan yoldaşına kömək etməyə cəhd göstərərkən ermənilərin minaatandan açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.



Şəhid Şəki şəhərinin Məzahir Abbasov küçəsində yerləşən qəbiristanlıqdakı Şəhidlər məzarlığında dəfn olunub. Rayonun Qoxmuq kəndində yaradılan şəhid bulağı və fotostenddə Elçinin də şəkli var.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş E.Nadirov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid hərbi qulluqçumuzun həyat yoldaşı Svetlana xanım qeyd edib ki, Elçin üçün ailəsi çox dəyərli idi. Onlar hərbçi ailəsi olduqlarından hər zaman qürur duyublar: "Bizim iki övladımız var: Arzu və Zaur. Elçin qızının göz həkimi, oğlunun isə hərbçi olmasını arzulayırdı. Mən inanıram ki, övladlarımız atalarının adına layiq ömür yaşayacaq, onun arzularını həyata keçirəcək, qalib ölkəmizin gələcəyinə öz töhfələrini verəcəklər".

Svetlana xanım eyni zamanda ailəyə göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların komandanlığına və hərbi hissənin şəxsi heyətinə minnətdarlığını ifadə edib.

**kapitan Xədicə Hacızadə**

4_Layout 1 12.08.2023 10:24 Page 1



# ETİBARLI MÜHAFİZƏNİN TƏŞKİLİ KOMENDANT BÖLÜYÜNÜN BAŞLICA VƏZİFƏSİDİR



16077 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri komendant bölüyüdür. Bölük döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların etibarlı mühafizəsi və müdafiəsini təşkil edir, qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilir. Şəxsi heyət xidmətin düzgün aparılması üçün əlindən gələni əsirgəmir. Etibarlı mühafizənin təmin olunması qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır.

Bölük komandiri kapitan Rabil Əmirxanov bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb edilərdən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır. O, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsində bölük komandirinin müavini leytenant Elnur Quliyevin, mənəvi-psixoloji durumun yüksəldilməsində isə tərbiyə işləri üzrə müavin baş leytenant Aqşin Mütəllibovun əməyinin olduğunu nəzərə çatdırdı.

Kapitan R.Əmirxanov xidmətin aparılmasında vacib olan şərtləri sadalayaraq söylədi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Bununla yanaşı, postda xidmət aparan zaman saatdarın ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsi də başlıca amildir. Yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

Zabit bölüyün intizamlı hərbi qulluqçuları kimi leytenant Zahid İsmayılov, gizir Lənkəran Abdullayev, baş əsgər Teymur Ağayev, əsgərlər Elvin Məmmədov, Vəli Sarıyev və Nadir Zəkəriyyəyevin adlarını qeyd edərək, onların yoldaşlarına nümunə olduqlarını bildirdi.

Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# XÜSUSİ TƏYİNATLI OLMASI İLƏ QÜRUR DUYAN ZABİT




16077 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından biri xüsusi təyinatlı dəstənin qrup komandiri kapitan Taleh Rüstəmlidir. O, 1990-cı il iyun ayının 14-də Qubadlı rayonunda doğulub. Sumqayıt şəhərindəki 39 saylı orta məktəbin məzunudur. Təhsilini tamamladıqdan sonra 2008-2010-cu illərdə 16075 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçib. 2010-2012-ci illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Ali Hərbi Məktəb) təhsil alıb. 17074 və 25033 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2014-cü ilin iyul-dekabr aylarında Türkiyə Respublikasının Foçada yerləşən komando təlim mərkəzində keçirilən kursda iştirak edib. 2021-ci ildən hazırkı vəzifədədir.

Qeyd edək ki, kapitan T.Rüstəmli 44 günlük Vətən müharibəsində iştirak edib, Cəbrayıl, Füzuli, Hadrut və Şuşa istiqamətlərində aparılan döyüş əməliyyatlarında fərqlənib. Hazırda Vətənə olan borcunu ləyaqətlə yerinə yetirən hərbi qulluqçumuz xüsusi təyinatlı olması ilə qürur duyduğunu bildirdi.

Zabitimizə bundan sonrakı şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN İSTEHKAMÇILARI UĞURLU XİDMƏTLƏRİ İLƏ FƏRQLƏNİRLƏR

17071 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı gizir Murad Haqverdiyev söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların-partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Məlumat üçün bildirək ki, 2015-ci ilin aprel ayından hazırkı vəzifədə xidmət edən gizir M.Haqverdiyev ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri kapitan Anar Mahmudov hərbi qulluqçunun uğurlarının peşəsinin sirlərinə dərindən bələd olmasından və öz işinə tam məsuliyyətlə yanaşmasından irəli gəldiyini bildirdi.

Yarımqrup komandiri qeyd etdi ki, qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir.



Bundan əlavə, gizir M.Haqverdiyev istehkamçıların döyüş hazırlığının ayda iki dəfə həm hərbi hissənin, həm də xüsusi təyinatlı dəstənin komandiri tərəfindən yoxlanıldığını da sözlərinə əlavə etdi: "İstehkamçıların peşə vərdişlərinin təkmilləşdirilməsi hər zaman diqqətdə saxlanılır. Bunun üçün hərbi qulluqçularımız mütəmadi olaraq müxtəlif kurslara cəlb olunurlar. Deyə bilərəm ki, yarımqrupun şəxsi heyəti Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi kurslarda müvəffəqiyyətlə iştirak edib və onlara sertifikatlar təqdim olunub".

Gizir M.Haqverdiyev onu da vurğuladı ki, yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuşlar Elmir Rəcəbov, Arzu Eyvazov, çavuş Zahid Səlimov və kiçik çavuş Mustafa İbrahimli verilən tapşırıqların icrasında hər zaman fərqlənirlər. Qeyd edim ki, hazırda da xidmətlərini uğurla davam etdirən hərbi qulluqçularımız bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazırdırlar.



**kapitan Nigar Ağayeva**

# PEŞƏKAR SÜRÜCÜ, İNTİZAMLI HƏRBİ QULLUQÇU



Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında və qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, avtomobil və zirehli texnikanın idarə edilməsində, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında daşınmasında peşəkar sürücülərin rolu böyükdür. 17072 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidmətinin rəisi vəzifəsini icra edən mayor Elçin Orucov vəzifələrini müvəffəqiyyətlə yerinə yetirən sürücü hərbi qulluqçulardan biri kimi çavuş Cavidan Həsənovun adını çəkdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş C.Həsənov 1986-cı il aprelin 21-də Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. 1992-2003-cü illərdə Şəmistan Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbində təhsil alıb. 2004-2006-cı illərdə Müdafiə Nazirliyinin Gəncədə yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildə 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun heyət nəfəri kimi müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2016-cı ildən bu günə kimi hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun sürücüsü vəzifəsindədir.

Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən Cavidan həm hissə komandanlığının etimadını, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

Xüsusi təyinatlı dəstə komandirinin vəzifələrini icra edən mayor Rəşad Məmmədov qeyd etdi ki, çavuş C.Həsənov hər gün ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. O, texnikanın xüsusiyyətlərini yaxşı bələddir, təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, onlara tam riayət edir. Təlim-tərbiyəsi, nümunəvi xidmətilə yanaşı, vətənpərvərliyi də onu fərqləndirən cəhətlərindəndir.

**kapitan Nigar Ağayeva**

# ŞƏXSİ HEYƏTİN QİDALANMASINDA MİLLİ TƏAMLARA ÜSTÜNLÜK VERİLİR



Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

16075 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi baş leytenant Vüsal Zülfüqarov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Baş leytenant V.Zülfüqarov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkilini də bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit görülən işlərdə yeməkxana rəisi baş çavuş Elməddin Alməmmədovun zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi - aşpazlardan Mənsurə Hüseynovanın və Vüsalə İbrahimovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

# CAMAŞIRXANANIN FƏALİYYƏTİNİN ƏSASI GİGİYENİK QAYDALARIN GÖZLƏNİLMƏSİDİR

Qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsində, hərbi hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, işçilərin də əməyi böyükdür. Camaşırxanalarda həftə ərzində şəxsi heyətin istifadə etdiyi əmlakların yuyulması məhz onlar tərəfindən həyata keçirilir. Qeyd etmək lazımdır ki, camaşırxanalar bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.





16075 saylı hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Rüfət Məhərrəmov 2015-ci ilin fevral ayından hərbi hissədə xidmət edir. Vəzifələrinin öhdəsindən layiqincə gəlir. Camaşırxanada olan avadanlıqların saz olmasına, texniki vasitələrdən istifadə zamanı təhlükəsizlik tədbirlərinə və sanitar-gigiyena qaydalarına riayət edilməsinə cavabdehlik daşıyan hərbi qulluqçu təbeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşırxana işçiləri Zeynəb Yunisova, Süsənbər Süleymanova, Fatma Əmrahova, Mehbarə Adıgözəlova artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalırlar.

Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

**kapitan Şahin Cəfərzadə**

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**